"Könüllülər ili" başa çatır

# Tarixi on yeddinci yüzilliyə gedib çıxan missiya

## Azərbaycanda misli-bərabəri görünməyən fədakarlığı onlar həm ön, həm də arxa cəbhədə göstərdilər

2020-ci il müxtəlif məsələlər baxımından yaddaqalan hesab ediləcək. Əlbəttə, bura ilk növbədə Azərbaycan xalqının, Ali Baş Komandan və Müzəffər Ordumuzun Qarabağdakı Qələbəsi daxildir. Bu qələbə dünyaya səs saldı. Çünki XXI əsrin hərbi Qələbəsini qazanmış Azərbaycan xalqı öz qüdrətini dünyaya, ikili standartlı siyasət yürüdən ATƏT-in Minsk qrupuna, bir sözlə, bu münaqişənin həllində maraqlı olmayan beynəlxalq dairələrə göstərdi.



Bundan başqa bəşəriyyəti hədələyən, hələ də konkret olaraq qarşısının alınmasında aciz qalan, xalqları və dövlətləri hədəfə alan, insanları məhv edən, iqtisadiyyatı çökdürən koronavirusla (COVID-19) mübarizə də 2020-ci ilin taleyinə mənfi təsir edən amil kimi yazıldı. Bu dəhşətli, amansız infeksiyanın epidemiyadan pandemiyayadək artması dünyanın başağrısına, probleminə çevrildi. Buna görə də bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycanda bu pandemiyanın cilovlanmasında dövlət və xalq birliyi, həmrəyliyi nümunəyə çevrildi. ÜST Azərbaycanın apardığı mübarizə üsulunun nümunəviliyini təqdir və təbliğ etdi.

Təbii ki, bu çətin məsələdə xalqımızın üzərinə çox böyük məsuliyyət düşdü. Ona görə də dövlət və qeyri-hökumət təşkilatları, ümumiyyətlə, cəmiyyət səfərbərliyə alındı. Bu baxımdan ölkənin gənc könüllülərinin vətənpərvərlik nümayişi bu gün də davam etməkdədir.

Xatırladaq ki, hər il 5 dekabr tarixi dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. BMT Baş Assambleyası 1985-ci il dekabrın 17-də hər il dekabrın 5-nin "Beynəlxalq Könüllülər Günü", 2020-ci ili isə Azərbaycan Prezidenti İlham Əliyev "Könüllülər ili" elan edib.

"Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyi bununla bağlı, yeni Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "Könüllülər ili" çərçivəsində elan etdiyi müsabiqə üzrə qalib olmuş "Könüllü inkişaf" - maarifləndirmə, mediada və sosial şəbəkələrdə geniş təşviqat kampaniyasının təşkili" adlı layihə icra edir. Layihə çərçivəsində təşkilat ekspertlərin tövsiyələri əsasında gənclərin könüllülüyə cəlb olunması, bunun cəmiyyətə, dövlətə faydaları, onların özünə qazandırdığı imkanlar barədə motivasiya xarakterli çağırış, maarifləndirici mətn hazırlayıb.

Haqlı olaraq bu gün bəzilərini belə bir sual maraqlandırır: "Gənclər könüllü olmaqla hansı faydaları verir və özü üçün nələr qazanır?" İctimai təşkilatların nümayəndələrinin qənaətincə, sualın ilk cavabı belədir: könüllülük vətəndaş cəmiyyətinin formalaşması, sosial problemlərin həllində olduqca mühüm bir hərəkatdır.

Azərbaycanda da könüllülük çox ciddi şəkildə inkişaf edir və ölkə rəhbərliyi buna birmənalı şəkildə dəstək və önəm verir. Könüllülüyün tarixi XVII əsrə gedib çıxsa da, bu proses iyirminci yüzilliyin ikinci yarısından etibarən həmrəylik və sosial məsuliyyətlə birlikdə sistemləşərək dünya çapında bir hərəkata çevrilib.

Ölkəmizdə könüllülük hərəkatının yüksəlişi Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonraya başlayıb. Xatırladaq ki, Gənclər Forumunun keçirilməsi, "Gənclər Günü"nün təsis edilməsi gənclər üçün böyük bir stimul oldu.

1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başladı. 1998-2000-ci illərdə bu proqramın nəticəsi olaraq ölkədə könüllü komandası yaradıldı. Bu, o dövrdə dövlət başçısının siyasətinin prioritet istiqamətlərindən biri idi.

Azərbaycanın brendi olan "ASAN xidmət"in yaranmasından sonra isə həyatımızı könüllülərsiz təsəvvür etmək mümkün deyil. Könüllü kimi "ASAN xidmət" mərkəzlərində təcrübə keçmiş, püxtələşmiş 10 mindən artıq gənc bu gün müxtəlif vəzifələrdə, xidmət sahələrində bacarıqlı kadrlar kimi özlərini doğruldurlar.

"Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il I Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər irimiqyaslı beynəlxalq tədbirlərə on minlərlə könüllünün töhfə verdiyini də unutmaq mümkün deyil.

Pandemiya dövründə könüllülük hərəkatının nə qədər vacib olduğunu bir daha gördük: aztəminatlı ailələrə yardımların çatdırılmasında, yaşlı və fiziki məhdudiyyətli şəxslərin məişət qayğılarının qarşılanmasında onlar mühüm rol oynadılar. Bunlarla yanaşı, neçə illərdir ölkədə həyata keçirilən yaşıllaşdırma - ağacəkmə kampaniyalarında, dəniz sahillərinin, müxtəlif parkların, ərazilərin təmizlənməsində də könüllülərin daim fəallığını görürük.

Könüllülük fəaliyyəti dünyada çox geniş yayılıb. Müxtəlif qurumlar, ictimai təşkilatlar kommunikasiyanın təmin olunması, digər səbəblərdən könüllülük şəbəkələri yaradır, təmənnasız fəaliyyəti təmin edirlər. Burada ən mühüm olan amillərdən biri də gənclərin kadr kimi yetişməsi, önə çıxması üçün şərait və motivasiyadır. Gənclər könüllülük hərəkatında yüksək təcrübə - davranış, qayğı və insanlarla işləmək vərdişlərini qazanır, müxtəlif işlərə keçdikdə, sağlam kadr kimi ölkənin inkişafı üçün töhfələrini verirlər. Habelə, könüllülər müxtəlif layihələr çərçivəsində xarici ölkələrə səyahət etmək, dil öyrənmək, yeni tanışlıq imkanları da əldə edirlər.

Könüllülərimizin Qarabağın erməni vandallarından azad edilməsində göstərdiyi misilsiz şücaət hərb tariximizə qızıl hərflərlə yazıldı. Döyüşüb Qələbə qazanan - rəşadətli tarix yazan Milli Ordumuzun sıralarında düşmənə layiqli cavab verən könüllülərimizin fədakarlıqları dillər əzbəridir. 44 günlük Vətən müharibəsində canlarını fəda edən 3 minə yaxın şəhidimizin, qazilərimizin arasında könüllülərimizin də az olmaması təsadüfi deyil.

Demək, könüllülük vətənpərvərlik düşüncəsi, xeyirxahlıq, alicənablıq kimi insani keyfiyyətlərdəndir ki, bu da xalqımızın qanında, canında formalaşıb. Qarabağımızı işğaldan azad etmişik! Əlbəttə, qarşıdakı müddətdə işğaldan azad edilmiş torpaqlarımızda görüləcək iqtisadi-sosial inkişaf prosesində, bərpa işlərində, məcburi köçkünlərin doğma yurdlarına qayıtması zamanı könüllülərə daha çox ehtiyac duyulacaq. Könüllülər bu fəaliyyətdə də seçiləcəklər.

Gənclər, tələbələr, yeni məzunlar könüllü olaraq bölgələrdə daha çox fayda verəcəklər. İşğaldan azad edilən Laçın və Kəlbəcər, eləcə də digər rayonların ərazilərində on hektarlarla meşə massivinin odlara qalanması, qırılıb məhv edilməsi nəticəsində orada pozulmuş ekoloji tarazlığın bərpası, sosial problemlərin həlli istiqamətində daha çox fəaliyyətə ehtiyac duyulacaqdır.

Bəs gənclər bu kimi vətənpərvərlik fəaliyyəti ilə məşğul olacağı təqdirdə fərdi inkişafı üçün nələri qazanacaq? Mütəxəssislər bildirirlər ki, ilk növbədə onlar bacarıqlı gənc kadr kimi yetişəcəklər. Bundan başqa, vakansiyalar üçün yetişmiş, hazır kadra çevriləcək, cəmiyyətdə özlərinin şəxsi nüfuzlarını əldə edəcək, ölkənin inkişafında öz rollarını müəyyənləşdirəcək, müxtəlif strukturlarla birbaşa və bilavasitə əlaqələri formalaşacaq, idarəetmə mexanizmlərini mənimsəyəcək, həmçinin, bilik və bacarıqları ilə irəli çəkilmək şansları qazanacaqlar.

Bir sözlə, gənclərin inkişafı üçün bu gün daha geniş imkanlar yaranır. Demək, harada yaşamağından asılı olmayaraq, gənclər müvafiq qaydada könüllü olsalar, könüllülük layihələrinə qoşulsalar, cəmiyyət də qazanar, onların özləri də. Cəmiyyətə, dövlətə töhfə və fərdi uğurun ən sadə düsturu - könüllülükdür.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*